İstedadlı gənc, gözəl skripka ifaçısı Həmidə Ağasoy haqqında ilk dəfə bu yaxınlarda - Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində keçirilən gənc ifaçıların Respublika müsabiqəsində eşitdim. Musiqi Kollecinin direktoru, əməkdar incəsənət xadimi, professor Nazim Kazımov müsabiqənin açılış mərasimində iştirakçılara belə bir xoş xəbər çatdırdı ki, tələbələri Həmidə Ağasoy bu yaxınlarda Macarıstanın paytaxtı Budapeştdə keçirilmiş beynəlxalq müsabiqənin laureatı olub.

Gənc istedadlar

Beynəlxalq müsabiqələr laureatı

Əlavə etdi ki, bu, Həmidənin beynəlxalq arenada qazandığı ən böyük uğurlardan biridir. Bu məlumatdan sonra Nazim müəllim mərasim iştirakçılarının alqış sədaları altında gənc skripkaçıya diplom təqdim etdi. Eləhəmin gün Həmidənin digər bir uğuruna da şahid olduq. O, böyük Azərbaycan bəstəkarı Fikrət Əmirovun 90 illik yubileyinə həsr olunmuş gənc ifaçıların Respublika müsabiqəsinin də qalibi oldu. Müsabiqənin açılış mərasiminin konsert proqramına Həmidənin də çıxışı daxil edilmişdi və biz böyük məmnuniyyət hissi ilə onun ifasını dinlədik. Həmin müsabiqədə ölkə üzrə 10 orta ixtisas musiqi təhsili müəssisəsindən 60-dək iddiaçı mübarizə aparırdı.

Həmidə ilə növbəti görüşüm də müsabiqədən bir neçə gün sonra Musiqi Kollecində oldu. Onunla sevib-seçdiyi sənət, İştirakçısı olduğu müsabiqə və konsertlər, gələcək arzuları barədə söhbət etdik.

Həmidə Ağasoy 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan oldu. Onda musiqiyə həvəsi musiqiçi olan anası oyadıb. Böyük bacısı İlahə də həyatını musiqiyə həsr edib. Fortepianoda çalır. Hazırda Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil alır.

Həmidə skripkanı da anasının istəyi ilə seçib. Hessas ana qızının bu sahədəki istedadını öncədən duya bilib. Bir il Naxçıvanda musiqi məktəbində oxuyub. Sonra ailələri Bakıya köçdüyündən 2003-cü ildən təhsilini burada davam etdirib. 16, 15, 21, 12 nömrəli musiqi məktəblərində oxuyub. 15 nömrəli musiqi məktəbində oxuyarkən müəllimi olmuş Aida İmişovanı özünün ustadı hesab edir. Skripkanın - bu möcüzəli alətin sirlərini məhz ondan öyrəndiyini vurğulayır.

Həmidə Ağasoy eyni zamanda Bakıdakı 20 nömrəli məktəb-liseydə oxuyub, 229 nömrəli məktəbdə ümumi orta təhsilini başa vurub. Gənc İstedad 2010-cu ildə müvəffəqiyyətlə imtahan verərək Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə daxil olub. Hazırda III kursda təhsil alır.

H.Ağasoyun böyük səhnəyə gedən yolu II sinifdə başlayıb. Belə ki, məhz II sinifdə oxuyarkən ilk dəfə müsabiqədə iştirak edib. 2005-ci ildə bacısı İlahə ilə birlikdə okompaniment müsabiqəsinə qatılıb və hər ikisi diplomla təltif olunub. 2008-ci ildə musiqi məktəbləri şagirdlərinin Respublika ifa müsabiqəsində İştirak edərək qaliblər sırasında olub. 2006-cı ildə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ABŞ-da təşkil olunmuş konsertdə çıxış edib. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Teymur Göyçayevin rəhbərliyi altında kamera orkestri ilə çıxışını isə Həmidə böyük səhnədəki ilk cıdı addımlarından biri sayır. Sonralar belə çıxışlan çox olub. Beynəlxalq aləmdə ilk böyük qələbəsini isə Macarıstanın paytaxtı Budapeştdə qazanıb. Bu il oktyabrın 25-den 31-dək burada keçirilmiş "Budapeşt uluslan" adlı XI Beynəlxalq müsabiqədə 12 ölkədən 600-dən çox gənc musiqiçi İştirak edib. Bu mötəbər yarışmada ölkəmizi Həmidə, bacısı İlahə və bir-iki nəfər digər ifaçı təmsil edib. Bacısı İl, Həmidə isə III yeri tutub.

Bu günlərdə isə təhsil aldığı kollecdə təşkil olunmuş Həmidənin solo konserti çox uğurla keçib.

Hazırda müəllim Ağahüseyn Hüseynovun sinfində oxuyan Həmidə kollecdə gənc istedadların inkişafı üçün yaradılan şəraitdən, kollec rəhbərliyinin tələbələrə göstərdiyi qayğı və diqqətdan çox razıdır. Arzusu kolleci bitirdikdən sonra Musiqi Akademiyasında oxumaq, Koreyada musiqi təhsilini davam etdirmək, məşhur İtalyan skripkaçısı Paqaninninin konsertlərini ifa etmək, tanınmış skripkaçı olmaqdır.

Gənc istedada bu yolda böyük uğurlar diləyirik.

Yusif ƏLİYEV

"Azərbaycan müəllimi"nə abunə yazılışı davam edir

"Azərbaycan müəllimi" qəzetinə (İndeks: 0003) 2013-cü ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.

Respublikamızın rayonlarında və Bakı şəhərində qəzetin 6 aylıq abunə haqqı 21 manat, illik abunə haqqı 50 manatdır.

Abunə respublikamızda fəaliyyət göstərən

"Azərmətbuatyayımı" ASC	*— (440-10-35),*
"Qasid" ASC	*— (493-23-19),*
"Qaya"	*— (465-67-13),*
"Səmə"	*— (594-09-59),*
"Kaspi"	*— (594-30-48),*
"Metro-servis"	*— (434-01-33),*
"Pressainform"	*— (598-49-52)*

mətbuatyayımı firmalarında qəbul edilir.

Redaksiya ilə əlaqə telefonu: 539-67-74

Elan

"Milli pedaqoqikanın yenilikləri" adlı respublika elmi-seminarının növbəti məşğələsi "Təhsilin məqsədi haqqında Milli pedaqogikanın elmi yenilikləri" mövzusunda olacaq.

Maraqlananlar İştirak edə bilərlər. Seminar 15 dekabr 2012-ci il, saat 11.00-da Azərbaycan Dillər Universitetində Heydər Əliyev adına muzey-lektoriyada keçiriləcək.

Ünvan: Rəşid Behbudov, 60
Telefonlar:
441-22-78; 441-22-79

Gənc vokalçımız Fransada keçirilən müsabiqədə iştirak edir

Azərbaycanın gənc vokalçısı Eldar Tahirov 13-20 dekabr tarixlərində Fransanın Bordo və Jonzak şəhərlərində keçirilən müsabiqədə iştirak edir.

Gənc vokalçı Bakıdakı F.Əmirov adına 6 nömrəli Onbirillik İncəsənət Məktəbinin vokal ixtisası üzrə IX sinif şagirdidir. O, ölkəmizi kiçik yaşlarından müxtəlif müsabiqə və festivallarda uğurla təmsil edir.

Onu da qeyd edək ki, Eldar Tahirov son illərdə "Avaza-Dostluq Məkanı" adlı III Beynəlxalq festivalda diploma (Türkmənistan, 2010), "İncəsənət vadisi" XI Beynəlxalq müsabiqə- festivalda Qran-pri mükafatına (Macarıstan, 2011), vokalçıların VII Beynəlxalq müsabiqəsində I mükafata (Estoniya, 2012), "Açıq Avropa - Açıq Planet" adlı IX Beynəlxalq müsabiqədə I mükafata (Moskva, 2012) layiq görülmüşdür.

S.KƏRİMOVA

"Argentina tanqosu" dərsləri iki ay davam edəcək

"İrəli" Mədəniyyət və İncəsənət mərkəzinin nəzdində fəaliyyət göstərən rəqs klubu gənc və yeniyetmələr tərəfindən maraqla qarşılanıb. "İrəli" İctimai Birliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, klubun bu sahədə ilk işi olan "Argentina tanqosu" dərsləri iki ay davam edəcək. Burada dərslər qrup rəhbəri Yelena Sidorenko tərəfindən aparılır. Qrupun 30 üzvü bu rəqsin sirlərinə dərindən yiyələnir.

Klubun fəaliyyəti çərçivəsində rəqs dərslərinin, festivalların keçirilməsi planlaşdırılıb. Burada milli, Avropa, Latın Amerikası, müasir və digər rəqslərin təlimi təşkil olunacaq. Rəqs klubunun yaradılmasında məqsəd gənclərin asudə vaxtlarının səmərəli keçirilməsini, onların milli və dünya rəqsləri barədə məlumatlandırılmasını təmin etməkdir.

Xan qızının yubiley tədbirində şagirdlər mükafatlandırıldılar

F.Köçərli adına Respublika Uşaq kitabxanasında Azərbaycanın görkəmli şairi Xurşudbanu Natəvanın anadan olmasının 180 illiyinə həsr edilmiş tədbir keçirilib. Bakıdakı 189 nömrəli tam orta məktəbin təşkilatçılığı ilə keçirilən tədbiri kitabxananın direktoru Fizurə Quliyeva açaraq Xan qızının həyat və yaradıcılığından ətraflı bəhs edib. Onun şairliklə yanaşı, rəssam, tikmə ustası kimi böyük istedad sahibi olduğunu, Qarabağ torpağının yetişdirdiyi sənətkarlar arasında özünəməxsus yer tutduğunu vurğulayıb.

Sonra yazıçı Mustafa Çəmənli X.Natəvanın 180 illik yubileyi ilə əlaqədar danışaraq görkəmli edibə həsr etdiyi "Neçin gəlməz" adlı kitabını İştirakçılara təqdim edib. Yazıçı kitabda Xan qızının həyat və yaradıcılığı ilə bağlı oxucu kütləsinə məlum olmayan bir çox maraqlı faktların olduğunu söyləyib. Müəllif Natəvanın irsinin gənc nəsillərə təbliğini yüksək dəyərləndirib.

Tədbirin sonunda şagirdlərin ifasında Xan qızının yaradıcılığından təqdim olunan nümunələr İştirakçılar tərəfindən maraqla qarşılanıb. Xurşudbanu Natəvanın yubileyinə həsr edilən rəsm müsabiqəsində fərqlənən şagirdlər kitablar və digər hədiyyələrlə mükafatlandırılıb.

Sifai SƏFƏROVA

Astara Pedaqoji Kollecində ədəbi-bədii kompozisiya

Böyük Azərbaycan şairi və mütəfəkkiri N.Gəncəvinin 870 illik yubileyi ilə əlaqədar Astara Pedaqoji Kollecində ədəbi-bədii kompozisiya keçirilib. Kollecin akt zalında tələbə və müəllimlərin iştirakı ilə düzənlənən tədbir dahi şairin "Sənsiz" romansının əlməz sənətkar Müslüm Maqomayevin ifası ilə açılıb. Şairin həyat və yaradıcılığından bəhs edən videoçarxa baxıldıqdan sonra kollecin dil-ədəbiyyat müəllimi Arzu Hüseynova qeyd edib ki, ölkə Prezidenti canab İlham Əliyevin sərəncamı ilə dahi Nizaminin yubileyi ölkənin hər yerində böyük təntənə ilə qeyd olunur.

Tələbələrdən Rahim İbrahimov, Aytən Ağayeva, Ülkər Cabbarova, Elza Əfruzzadə, Ülvi Kazımov, Turan Əzizli, Aytac Şirəlizadə, Elmir Tağıyev, Elnur İbrahimov ulu şairin əsərlərindən nümunələri əzbər söyləyib və "Xəmsə"dən müxtəlif parçalar göstərilib. Müəllimlərdən dil-ədəbiyyat müəllimi Osman Babayev və ingilis dili müəllimi Əliağa Ələkbərov çıxış edərək qeyd edibər ki, tarix belə dühaları hər zaman yetirmir. Belə böyük və unudulmaz simalar nadir hallarda dünyaya gəlir. Nizami təkcə Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin ən parlaq dühalarından biridir. Nizaminin əsərlərindəki dərin hikmət, gözəllik, əzəmət, insanları xoşbəxt etmək istəyi bu gün üçün də aktualdır. Nizamini yaxşı öyrənmək, onun zəngin, mənalı, müasir əhəmiyyətli irsini müxtəlif dillərə tərcümə etmək və bu irsi həm də başqa xalqların, milli mədəniyyətlərin istifadəsinə vermək gənc nəsil alim və tədqiqatçılarının, tərcüməçilərin ümdə vəzifəsi olmalıdır.

Kollecin direktoru, fəlsəfə doktoru, əməkdar müəllim Əlihəsən Həmzəyev tədbirdə çıxış edərək bildirib ki, dünyanın bütün xalqları, söz, sənət dahiləri yüz illər boyu Nizami möcüzəsini etiraf edib, Nizami zirvəsi önündə səcdəyə gəliblər. Nizami bütün zamanların qüdrətli şairi, ədəbi qabiliyyət nəhəngi, əbədiyyət dahisidir.

Sonda Azərbaycan bəstəkarı Fikrət Əmirovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş orta ixtisas musiqi məktəblərinin tələbələri arasında keçirilən gənc ifaçıların respublika müsabiqəsində fərqlənmiş kollecin tələbələri - Raul Ağayeva və Aynurə Quluzadəyə diplomlar təqdim edilib.

Azad ABDULLAYEV

"Əhməd Cavad - 120" adlı ədəbi-bədii gecə

Bu günlərdə İmişli rayon sakini Ellada Behlulqızından aldığımız məktubda bildirilir ki, şəhər A.Eminov adına 7 nömrəli tam orta məktəbdə "Əhməd Cavad-120" adlı ədəbi-bədii gecə keçirilib.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Ə.İbrahimov müəllimləri, şagirdləri və valideynləri salamlayaraq bildirib ki, 2012-ci ildə unudulmaz Azərbaycan şairi, maarifçi, İctimai xadim, Azərbaycan Dövlət himninin sözlərinin müəllifi olan Əhməd Cavadın anadan olmasının 120 ili tamam olur. Ölməz şairin həyatı və yaradıcılığı ilə bağlı ölkəmizdə, eləcə də bütün türk dünyasında bir-birindən maraqlı tədbirlər həyata keçirilir. Məktəbimizdə təşkil olunmuş bu tədbir də böyük şairə, onun yaradıcılığına olan hörmət və ehtiramın nümunəsidir.

Sonra məktəbin ədəbiyyat müəllimi L.Bəşova şairin əzablı həyat yolundan, dəhşətli 1937-ci İlin qurbanı olması, əsərlərinin nəşrinə və oxunmasına uzun illər qadağa qoyulması barədə tədbir İştirakçılarına ətraflı məlumat verərək Ə.Cavadın XX əsr Azərbaycan ədəbiyyatının, poeziyasının təkrarolunmaz simalarından biri və onun türk dünyasının, Turan elinin böyük şairi olduğunu diqqətə çatdırıb.

Gecənin sonunda məktəbin şagirdləri ölməz şairin "Nə gördümsə", "Bismillah", "Qalx" və s. şeirlərindən nümunələr söyləyiblər.

ƏDALƏT

Məktəblərarası əməkdaşlıq öz bəhrəsini verir

Şuşa rayon 1 nömrəli Malıbəyli kənd tam orta məktəbi və Bakı Slavyan Universiteti Məktəb-lisey kompleksi arasında ötən tədris İlinin sonunda İmzalanmış əməkdaşlıq müqaviləsi hər İki pedaqoji kollektivin İşinə rəngarənglik gətirir. Təhsil naziri, professor Misir Mərdanovun, BSU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor Kamal Abdullayevin və Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərovun İştirakı İlə İmzalanmış bu müqavilə həm də İstedadlı şagirdlərin üzə çıxarılması və qaçqın məktəbləri şagirdlərinə qayğının artırılması İstiqamətində universitetin potensialından səmərəli İstifadə etmək məqsədi güdür.

İki məktəbin növbəti birgə tədbiri noyabrın 5-də BSU Məktəb-lisey kompleksində baş tutdu. X-XI sinif şagirdləri üçün tədris İli ərzində İlk test sınaq yoxlama İmtahanı keçirildi. Məqsəd yuxarı sinif şagirdlərinin məkəzləşdirilmiş test və ali məktəblərə qəbul İmtahanlarına seçmə fənlər üzrə hazırlıq səviyyəsini üzə çıxarmaqdan İbarət İdi. Məktəblisey kompleksinin 150 və Şuşa rayon Malıbəyli kənd orta məktəbinin 33 nəfər yuxarı sinif şagirdinin İştirakı İlə keçirilən test sınaq İmtahanında şagirdlərə onların seçdikləri İxtisas qrupları və siniflərinin təmayülü üzrə tapşırıqlar təklif olunmuşdu. İmtahanın nəticələrinin kompleksin saytında yerləşdirilməsi, ekspertlər, fənn müəllimləri və valideynlərin İştirakı İlə müzakirəsi nəzərdə tutulur.

Elə həmin gün BSU Məktəblilisey kompleksinin beşinci siniflərində hər İki məktəbin müəllimlərinin İştirakı İlə kurikulum proqramları əsasında nümunəvi dərs dinləmələri baş tutdu. Azərbaycan dili, riyaziyyət və İngilis dili fənlərindən "açıq dərs"lər cıddı müzakirə edildi, məktəb rəhbərləri, təlimçi müəllimlər və universitet kafedralarının əməkdaşları dərslərə bağlı geniş fikir mübadiləsi apardılar. Növbəti müştərək tədbirlər planlaşdırıldı.

Yeganə MƏMMƏDOVA,
BSU Məktəb-lisey kompleksinin tədris İşləri üzrə direktor müavini

Şairin könül səltənəti



Bütün şüurlu həyatını, ömrünü balalarımızın, gənc nəslin təlim-tərbiyəsinə həsr edən görkəmli şair, ədəbiyyatşünas, filologiya elmləri dokturu, professor Rafiq Yusifoğlu ali və orta məktəblər üçün yazılan neçə-neçə dərsliyin, dərs vəsaitlərinin, tədris proqramlarının, elmi monoqrafiyaların müəllifidir. Onun şeirləri, hekayələri, nağılları uzun illərdir ki, orta məktəb dərsliklərində, əlavə oxu kitablarında özünə möhkəm yer tutmuşdur.

Rafiq Yusifoğlu mənən çox zəngin qələm sahibidir. Ele buna görə də onun nəşr olunan hər yeni kitabı oxucular tərəfindən maraqla qarşılanır. Şairin bu yaxınlarda çapdan çıxmış "Könül səltənəti" (ADPU nəşriyyatı, 2012) kitabında yeni nəslin estetik zövqünü oxşayan birbirindən mənalı şeirlər, Çin, Koreya, Rusiya, Gürcüstan şairlərinin şeirlərindən yeni tərcümələr toplanmışdır. Bu əsərləri oxuyanda İctimai-siyasi hadisələrə biganə qalmayan, vətən təbəlitini dərin məhəbbətlə sevən, onun füsunkar lövhələrini sənətkarlıqla əks etdirən şair İrəyinin çırpıntılarını eşidirik. "Naxçıvan", "Beş yüz İlin ən uzun gecəsi", "Lalə dənizi", "Abşeronun külekləri", "Qoca dünya", "Belə getsə", "Vulkan" və s. bu kimi şeirlərdə R.Yusifoğlunun mövzuya yeni münasibəti öz əksini tapmışdır. Dünyamızın taleyindən narahat şair İnsanları təbəlitin İşinə qarışmamağa səsləyir:

Bir İş görməzdən əvvəl
Gərək İnsan düşünə.
Xataldır qarışmaq
Təbəlitin İşinə...
O bize üsyan edir,
Coşur, haray qoparır.
Dağda torpaq sürüşür,
Aranı sel aparır...

Rafiq Yusifoğlunun şeirlərindəki təbələt lövhələri adamı heyran edir. Oxucu ele bil ki, bu şeirlərin İlrik qəhrəmanına qoşulub Azərbaycan torpağını qarış-qarış gezir, onun gözəlliyindən zövq alır. Rafiq Yusifoğlu hər otu, çiçəyi, dağı, daşı, hətta ən adi yarpağı belə bədii obraz səviyyəsinə qaldıra bilir. "Gül bayramı" şeirini şair çox mənalı və gözəlnilməz bir sonluqla bitirir:

Bayramı olana
gül verirlər,
Bəs güllərə
nə bağışlayaq?

Kitabda Rafiq Yusifoğlunun Türkiyə səfəri əsasında yazdığı təəssürat şeirlər "Türkiyə nəğmələri" başlığı altında yer alıb. "Sevgimin əbədiyyət yuvası" adlı bölmədə İse müəllifin son İllərdə yazdığı sevgi şeirləri toplanıb. Bu şeirlər İnsanları sevərək yaşamağa, sadəqəlbi, vəfalı olmağa səsləyir.

Rafiq Yusifoğlunun öz mənəvi aləmi kimi onun "Könül səltənəti" də çox zəngindir. İnanırıq ki, bu sehrli dünyaya səyahət edən, şairin bir-birindən mənalı, az sözlə dərin fikir İfadə edən şeirlərini oxuyanlar məmnun qalacaqlar. Çünki Rafiq müəllimin şeirləri hər an, hər saniyə İnsana İnsan olduğunu xatırladır.

Günel ALMAZ,
AMEA-nın Folklor İnstitutunun doktorantı

Siyəzəndə konfrans keçirildi

Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialı noyabrın 24-də Siyəzən və Xızı rayonlarının müəllimləri İlə birgə "5-ci siniflərdə fənlərin tədrisində yeni təlim texnologiyalarından İstifadənin aktual problemləri" mövzusunda konfrans keçirdi.

Konfransı AMİ-nin Sumqayıt filialının direktoru, kimya elmləri doktoru, professor Rəya Nəcəfova açaraq qeyd etdi ki, ayrı-ayrı fənlərə aid kurikulumun tələblərinə uyğun dərsliklər yazılmış və proses İndi də davam etdirilir. Bu dərsliklərdən İbtidai məktəb və 5-ci sinif şagirdləri İstifadə edirlər. Yeni yazılmış dərsliklər barədə müəllimlərin fikirlərini öyrənmək, İanqidi İradlarını dinləmək konfransın əsas məqsədidir.

Konfransda beş İstiqamət üzrə məruzə dinlənildi. Sumqayıt Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası" kafedrasının pedaqoqika üzrə fəlsəfə doktoru, dosent Yusif Aslanovun "Azərbaycan dili və ədəbiyyat dərslərində müasir təlim texnologiyalarından İstifadə", Qubadlı rayon Işıqlı kənd orta məktəbinin müəllimi Araz Əliyevin "5-ci siniflərdə riyaziyyat fənninin tədrisinin aktual problemləri", biologiya üzrə fəlsəfə doktoru, dosent Rafiq Hüseynovun "Həyat bilgisi" fənninin tədrisində müasir təlim metodları", İctimai elmlər kafedrasının müdiri, tarix elmləri doktoru, professor Arif Məmmədovun "V siniflərdə Azərbaycan tarixi fənninin tədrisinin müasir problemləri", ADPU-nun baş müəllimi, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Aygün Məcidovanın "İbtidai təhsilin İnkişaf tarixi və müasir məktəb" mövzularında etdikləri məruzələr konfrans İştirakçılarının böyük marağına səbəb oldu.

AMİ-nin İxtisasartırma və yenidənhazırlanma fakültəsinin dekanı Telman Haqverdiyev çıxış edərək Sumqayıt filialının apardığı bu İşin əhəmiyyəti və yeni təlim texnologiyalarından İstifadə etmək yollarını öyrənmək baxımından faydalı olduğunu müsbət qiymətləndirdi.

Məlahət İSMAYILZADƏ